## TÜRK XALQLARINDA HƏRB SƏNƏTİ VƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

***Həcər Hüseynova***
*Filologiya elmləri doktoru, professor.*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, MMU,*
*hacerhuseynova@mail.ru*
*https://orcid.org/0000-0002-3223-427X*

**Xülasə**

Türklərdə hərb təkcə zor və münaqişə vasitəsi yox, ideoloji və mənəvi dəyər olaraq görülmüşdür. Bu səbəbdən də uşaq tərbiyəsi, ailə modeli, cəmiyyətin quruluşu hərbi əxlaq üzərində qurulmuşdu. Qız və oğlan övladları "alp" ruhunda, mərdlik və sədaqət prinsipləri ilə böyüdülmüşdür.
Professor İsa Həbibbəyli yazır: “Türklər hərbi mədəniyyətlərini, sadəcə, döyüş meydanlarında yox, ailə və uşaq tərbiyəsində də yaşatmışlar” ("Türk düşüncəsində hərb və ədalət", Bakı, 2012).
Azərbaycan hərbi terminologiyasının zəngin və çoxşaxəli tarixi bizə göstərir ki, dilin bu sahəsi, sadəcə, lüğəvi zənginlik deyil, həm də milli kimlik, tarixi yaddaş və ideoloji müqavimət vasitəsidir. Bu mirası qorumaq, araşdırmaq və müasir hərbi sistemlə uzlaşdırmaq gələcək nəsillər üçün tarixi, elmi, eyni zamanda, strateji əhəmiyyət daşıyır.
**Açar sözlər:** hərb sənəti, döyüş ruhu, tərbiyə, təlim, müdafiə

## SAVAŞ SANATI VE VATANSEVERLİK TÜRK HALKLARI ARASINDA EĞİTİM

***Hacer Hüseynova***
*Filoloji Doktoru, Profesör.*
*Azerbaycan Devlet Pedagoji Üniversitesi, MMU,*
*hacerhuseynova@mail.ru*
*https://orcid.org/0000-0002-3223-427X*

**Özet**

Türkler için savaş yalnızca bir güç ve çatışma aracı olarak değil, aynı zamanda ideolojik ve ahlaki bir değer olarak da görülüyordu. Bu nedenle çocuk yetiştirme, aile modeli ve toplum yapısı askeri ahlak üzerine inşa edilmişti. Kız ve erkek çocuklar "alp" ruhuyla, cesaret ve sadakat ilkeleriyle yetiştiriliyordu.
Profesör İsa Habibbeyli şöyle yazıyor: "Türkler askeri kültürlerini yalnızca savaş meydanlarında değil, aile ve çocuk yetiştirmede de canlı tuttular" ("Türk Zihninde Savaş ve Adalet", Bakü, 2012). Azerbaycan askeri terminolojisinin zengin ve çeşitli tarihi, dilin bu alanının yalnızca bir sözcük zenginliği değil, aynı zamanda ulusal kimlik, tarihsel hafıza ve ideolojik direnişin bir aracı olduğunu göstermektedir. Bu mirasın korunması, incelenmesi ve modern askeri sistemle uzlaştırılması, gelecek nesiller için tarihi, bilimsel ve aynı zamanda stratejik öneme sahiptir.
**Anahtar kelimeler**: askeri sanat, savaş ruhu, eğitim, öğretim, savunma

# THE ART OF WAR AND PATRIOTISM EDUCATION AMONG THE TURKISH PEOPLES

***Hajar Huseynova***
*Doctor of Philology, Professor.*
*Azerbaijan State Pedagogical University, MMU,*
*hacerhuseynova@mail.ru*
*https://orcid.org/0000-0002-3223-427X*

**Summary**

For the Turks, war was seen not only as a means of force and conflict, but also as an ideological and moral value. For this reason, child upbringing, family model, and the structure of society were built on military morality. Girls and boys were raised in the "alpine" spirit, with the principles of courage and loyalty.
Professor Isa Habibbeyli writes: "The Turks kept their military culture alive not only on the battlefields, but also in family and child upbringing" ("War and Justice in the Turkish Mind", Baku, 2012).
The rich and diverse history of Azerbaijani military terminology shows us that this area of the language is not just a lexical wealth, but also a means of national identity, historical memory and ideological resistance. Preserving, studying and reconciling this heritage with the modern military system is of historical, scientific and at the same time strategic importance for future generations.
**Keywords:** military art, fighting spirit, education, training, defense

**Giriş:**
Azərbaycan dili xalqımızın milli-mədəni kimliyini formalaşdıran əsas ünsürlərdən biridir. Bu dilin leksik qatında müxtəlif sahələrə aid terminoloji sistemlər mövcuddur və bu sistemlər içərisində hərbi terminologiya xüsusi yer tutur. Tarixən müxtəlif imperiyaların və dövlətlərin təsiri altında qalmış Azərbaycan dili, o cümlədən onun hərbi terminləri, həm yerli, həm də xarici mənbələrdən qidalanaraq zənginləşmişdir.
Qədim türk dövrlərindən başlayaraq, Azərbaycan türklərinin hərbi təcrübəsi və siyasi təşkilatlanması onların dilinə də birbaşa təsir etmişdir. Göytürk yazıları, Orxon-Yenisey abidələri, Dədə Qorqud dastanı, eləcə də sonrakı Səlcuq, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövrlərində formalaşmış hərbi anlayışlar Azərbaycan türkcəsinin terminoloji ehtiyatını formalaşdıran əsas mənbələrdəndir.
Azərbaycan dilindəki hərbi terminologiyanın formalaşmasını, tarixi inkişaf mərhələlərini, əsas mənbələrini, müasir vəziyyətini, habelə qədim türk dillərində ortaq işlənmiş terminləri, türklərdə hərbə münasibəti və cəmiyyətin hərbi ruhda tərbiyəsini də araşdırmaq müasir dünya dilçiliyini, və geniş oxucu kütləsini maraqlandıran aktual məsələlərdəndir.
Son dövrlərə qədər dünya siyasətçilərinin belə bir uydurma münasibəti hər yerdə təbliğ edilirdi ki, guya Azərbaycan türkləri. ümumiyyətlə türklər hərb sənətindən uzaqdırlar. Döyüşməyi bacarmırlar. Lakin baş verən müharibələrdə, hətta SSRİ-nin tərkibində döyüşlərdə azərbaycanlı kişilərlə bərabər yüzlərlə qadın döyüşçülərimizin qəhrəmancasına iştirakı süni şəkildə yaradılmış mifi bir qədər dağıtdı. Daha sonra I Qarabağ döyüşlərində nizami ordunun olmadığı (90-cı illər) dövrdə Azərbaycan milisi, silahlı dəstələr və həmin illərdə formalaşmış XTMD (OMON) düşmənin gözünü qorxutdu. Hər bir rayon uğrunda fədakarcasına mübarizə apardı. Minlərlə döyüşçü, milis, könüllü şəhid oldu. Çünki I Qarabağ döyüşlərində ermənilərə dəstək verən rus ordusu var idi. Müstəqilliyimiz qazandıqdan sonra

dövlətimizin ilk işi, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti, dövlətçilik təcrübəsi sayəsində Ordu quruculuğu məsələsi oldu. Hərbi təhsilə maraq gücləndi. Böyüyən nəsil itirilmiş torpaqlarımızı geri qaytarmaq əzmi ilə ordu sıralarında rəşadət göstərir, hərbi məktəblərə üz tuturdular.
Nəticədə, bu gün müasir, nizami Azərbaycan ordusu formalaşdı. 44 günlük müharibə nəticəsində 30 il işğal altında qalan ərazilərimiz azad edildi, geri qaytarıldı.
Bütün bunlar onu söyləməyə əsas verir ki, türk xalqları dünyada mövcud olduğu gündən bu günə qədər, həmişə mübarizəyə, döyüşə hazır olub. Ailədə doğulan uşaqlar oğlan və ya qız olmasından asılı olmayaraq, döyüşün sirlərini öyrəniblər, xüsusi təlimlər keçib, at minib, qılınc oynatmağı öyrəniblər. Xüsusi günlərdə təlimlər təşkil edilib, gənclər yarışıblar. İgidlik göstərməyənlərə ad verilməyib. Türk qadınları yalnız övlad dünyaya gətirməyib, eyni zamanda çətin zamanda əlinə silah alıb həyat yoldaşı ilə birgə düşmənlərə qarşı savaşmışdır. Bu ənənələr də elə türk xalqlarının dilində hərbi leksikanın formalaşmasına zərurət yaratmışdır.
Türk xalqlarından biri kimi Azərbaycan hərbi terminologiyasının kökləri qədim türk dövlətlərinə – xüsusilə Göytürk, Uyğur və Səlcuq mədəniyyətlərinə dayanır. Bu dövrlərdə formalaşmış hərbi idarəetmə sistemi, silah adları, rütbə və struktur anlayışları dil vasitəsilə nəsildən-nəslə ötürülmüşdür.
2.1 Qədim türk yazılı mənbələrindən Orxon-Yenisey abidələri (VIII əsr) ilkin mənbələrdən hesab edilir. Bu abidələrdə “ordu”, “ilbaşı”, “alp”, “tigin” kimi hərbi və idarəetmə terminləri geniş istifadə olunmuşdur.
Azərbaycan və ümumtürk ədəbiyyatının bu klassik nümunəsi “Dədə Qorqud” dastanında “alp”, “ər”, “qalxan”, “ox”, “çapan”, “kürəkən” kimi döyüş və silah terminləri rast gəlinir. Bu dastan həm leksik, həm də ideoloji baxımdan hərbi mədəniyyətin zənginliyini əks etdirir.
2.2 Orta əsrlər və klassik dövrü -Səlcuqlular və Eldənizlər dövründə Ordu strukturları daha da sistemləşdirildi, “sipahi”, “nökər”, “sərkərdə”, “tüfəngdar” kimi terminlər ortaya çıxdı.
Səfəvilər dövründə isə fars və ərəb dillərindən bəzi terminlər, “ləşgər”, “sipahsalar”, “sərrisə”, “cəbbəxana” kimi kompleks terminlər dilimizə daxil oldu.
2.3. XIX–XX əsrlər Çar Rusiyası və Sovet dövrünə təsadüf edir. Bu dövrlərdə “general”, “kapitan”, “polkovnik”, “komandir” kimi rus mənşəli terminlər Azərbaycan dilinə keçdi və geniş yayıldı.
-1918–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə qısa müddətdə olsa da, milli ordu quruculuğuna başlanıldı, ordu terminologiyası formalaşdırıldı və türk modellərinə uyğunlaşdırılmağa çalışıldı.
2.4. Müasir dövrdə-1991-ci ildən sonra, Azərbaycan Ordusunun yenidən qurulması ilə yanaşı, milli hərbi terminlərə dönüş cəhdləri də artdı. Müasir ordu leksikasında həm türk, həm rus, həm də beynəlxalq (ingilis) mənşəli terminlər paralel şəkildə istifadə olunur.
Lakin buna baxmayaraq, türklərdə lap qədim dövrlərdən hərb sənəti inkişaf etdiyinə görə, bu sahəyə aid olan sözlərin-terminlərin yaranmasının da tarixi qədimdir. Həmin terminlərə istənilən qədər nümunə göstərmək olar.
Qədim türk dillərində ortaq işlənmiş, Azərbaycan hərbi terminologiyasına təsir etmiş sözlərə aşağıdakıları nümunə göstərə bilərik:

| N | Termin | Mənası-tarixi | Müasir qarşılığı/Qeyd |
|---|---|---|---|
| 1 | ordu | Döyüşçülərdən ibarət nizami silahlı birləşmə | Eyni formada müasir dildə işlənir |
| 2 | əsgər | Hərbi xidmətçi, döyüşçü | Hərbi qulluqçu |
| 3 | tümen | 10.000 nəfərlik hərbi dəstə | Tarixi struktur, müasir orduda istifadə olunmur |

| | | | |
|---|---|---|---|
| 4 | yüzbaşı | 100 nəfərlik birliyə rəhbərlik edən zabit | Müasir hərbi rütbə |
| 5 | minbaşı | 1000 nəfərlik dəstə rəhbəri | Tarixi rütbə |
| 6 | İlbaşı | Dövlətin və ordunun rəhbəri | “Baş komandan” anlayışına bənzər |
| 7 | Kürəkən | Hökmdarın hərbi başçısı | Uyğur və Göytürk mənbələrində rast gəlinir |
| 8 | Çeri | Döyüşçü, əsgər (klassik termin) | “Yeniçəri” sözündə qorunub |
| 9 | Batır | İgid, döyüşçü, qəhrəman | "Batur", "Batırxan" adlarında qorunub |
| 10 | Tegin/Tigin | Hökmdarın oğlu, yüksək rütbəli hərbi sərkərdə | Göytürk abidələrində geniş yayılmışdır |
| 11 | Nökər | Hökmdara sadiq döyüşçü və ya xidmətçi | Xidmətçi |
| 12 | Yamaq | Kiçik rütbəli zabit və ya köməkçi dəstə | Əski türk ordusunda mövcud olub |
| 13 | Tayfa | Döyüş birliyi kimi fəaliyyət göstərən sosial icma | Həm etnik, həm hərbi anlam |
| 14 | Alp | Qəhrəman, igid döyüşçü | Dastanlarda və miflərdə geniş yayılıb |
| 15 | Qılınç | Kəsici və zərbə silahı | Klassik silah növü |
| 16 | Ox | Yayla atılan uclu silah | Tarixi döyüş aləti |
| 17 | Yay | Ox atmaq üçün istifadə edilən silah | Ənənəvi uzaq məsafəli silah |
| 18 | Sərkərdə | Ordu komandanı | Müasir dildə "general", "komandir" anlamına yaxın |
| 19 | Börü | Canavar; qoruyucu və döyüş simvolu | Türk mifologiyasında hərbi totem |
| 20 | qartal | Güc və rəhbərlik simvolu | Türk mifologiyasında hərbi totem |
| 21 | Sağ/sol qanad | Ordunun sağ və sol hissəsini bildirən struktur | Türk ordularında strukturlaşdırılmış sistem |
| 22 | Kür | Döyüşçülərin yığıncağı, hərbi məclis | Qərarverici hərbi icma |
| 23 | Toy | Zəfər və ya ordu toplantısı, bayram | Hərbi-sosial tədbir olaraq keçirilib |
| 24 | İrki | Soydan gələn döyüşçü, genetik igid | “İrq” anlayışının hərbi kontekstdə istifadəsi |

Lap qədim dövrlərdən türk etnoslarında hərbi oyunlar, özünümüdafiə bacarıqları ailədə, toplumda azyaşlılara, gənclərə təlimlər vasitəsilə öyrədilmiş, aşılanmışdır. Buna görə də türk xalqlarında hərbi sənət bir həyat tərzinə çevrilmişdir.

Qədim türk toplumlarında hərb, sadəcə, müharibə vasitəsi deyil, ideoloji və mədəni sistemin əsası idi. “Alp”, “batur”, “börü”, “qartal”, “ordu” kimi anlayışlar yalnız döyüşü deyil, milli ruhu, şərəfi, kişiliyi və məsuliyyəti də ifadə edirdi. Ordu yalnız kişi işi deyil, cəmiyyətin bütövlükdə daşıdığı yük idi.

Türklərdə hərbi sahəyə maraq, vətənpərvərlik, yurd sevgisi kimi hisslər uşaq yaşlarından öyrədilir və olduqca mühüm əhəmiyyət daşıyır. Türk ailəsində uşaqlar kiçik yaşlardan “alp” (ən cəsur) kimi yetişdirilirdi. Kiçik yaşlarından uşaqlara döyüşçü geyimləri geydirilir, oyuncaq silahlar daşımalarına icazə verilir, at minmək, ox atmaq, qılınc oynatmaq kimi bacarıqlar öyrədilmişdir.
Fiziki hazırlıqla yanaşı, namus, vətən sevgisi, böyüyə itaət, dözümlülük kimi mənəvi dəyərlər aşılanırdı. Dədə Qorqud dastanında igid oğullar – Basat, Qazan, Bamsı Beyrək yeniyetmə yaşlarında döyüşə qatılmışlar.
Hərbi döyüş təlimlərinə həm qızlar, həm də oğlanlar cəlb edilmiş, arada cinsi fərq qoyulmamışdır. Çünki türk düşüncə tərzində qadınlar yalnız uşaq dünyaya gətirən, fərd kimi deyil, lazım gəldikdə döyüşlərdə kişilərlə yanaşı iştirak edən, özünü, ailəsini, şərəf və ləyaqətini, torpağını müdafiə edən, həyat yoldaşına döyüşlərdə arxa olan bir döyüşçü kimi təmsil olunmuşlar.Oğlanlarla yanaşı, qızların döyüşçü kimi böyüdülməsi milli mentalitet məsələsi olmuşdur. Türklərdə qadınlar sadəcə evdə deyil, ordu və müharibə sahəsində də aktiv olmuşlar. Onlardan bəzilərinin adlarını nümunə göstərmək olar:
1.Tomris Xatun – fars hökmdarı Kir-i məğlub edən Saka türk kraliçası idi.
2. Burla Xatun – “Kitabi-Dədə Qorqud” dastanında igid, döyüşkən  qadın kimi təsvir edilir.
Qıpçaq, Kimer, Xəzər kimi türk toplumlarında qadınlar silah daşımış, hətta bəzən orduya rəhbərlik etmişlər.
Professor Baheddin Ögel qeyd etmişdir ki, türk qadını özünü evin içində deyil, döyüş meydanında da sübut edə bilən bir varlıq kimi tanıtmışdır (Türk Mədəniyyət Tarixi, Ankara, 1985).
Türk mifologiyasında hərb və igidlik Tanrısal qaynaqdan gəlir. Məsələn;
- Göy Tanrı inancı: Döyüşçü və xaqanlar Tanrının seçilmişləri hesab olunurdu.
- Börü (canavar) və qartal: Döyüş ruhunu təmsil edən totemlərdir.
-“Qurtuluş” anlayışı – xalqın azadlığı üçün savaş – türk mifik düşüncəsində əsas yer tutur.
Bu dediklərimiz müasir türk xalqlarında da eyni semantikanı daşımaqdadır. Bundan başqa, hərbə maraq və vətənpərvərlik, müdafiə hissinin yüksək olması xalqın, fərdin social statusunun müəyyənləşməsində də mühüm faktorlardandır. İgidlər “alp”, “ər”, “batur” kimi adlarla çağırılmış, xalq arasında yüksək hörmət sahibi olmuşlar. Bu status yalnız fiziki gücə deyil, əxlaqi duruşa, mərdliyə və sadiqliyə əsaslanırdı.

## NƏTİCƏ

Azərbaycan dilindəki hərbi terminologiyanın inkişafı qədim türk dilləri ilə sıx bağlıdır. Qədim dövrlərdə türklərin dövlətçilik və hərb sahəsindəki uğurları bu xalqların dillərində öz əksini tapmış, bu gün də işlək olan yüzlərlə hərbi termin formalaşmışdır. Bu terminlər təkcə silah və döyüş texnikasına deyil, həm də idarəetmə, rütbə, davranış normalarına və sosial rollara aid olmuşdur.
Türklərdə hərb təkcə zor və münaqişə vasitəsi yox, ideoloji və mənəvi dəyər olaraq görülmüşdür. Bu səbəbdən də uşaq tərbiyəsi, ailə modeli, cəmiyyətin quruluşu hərbi əxlaq üzərində qurulmuşdu. Qız və oğlan övladları "alp" ruhunda, mərdlik və sədaqət prinsipləri ilə böyüdülmüşdür.
Professor İsa Həbibbəyli yazır: “Türklər hərbi mədəniyyətlərini, sadəcə, döyüş meydanlarında yox, ailə və uşaq tərbiyəsində də yaşatmışlar” ("Türk düşüncəsində hərb və ədalət", Bakı, 2012).
Azərbaycan hərbi terminologiyasının zəngin və çoxşaxəli tarixi bizə göstərir ki, dilin bu sahəsi, sadəcə, lüğəvi zənginlik deyil, həm də milli kimlik, tarixi yaddaş və ideoloji müqavimət vasitəsidir. Bu mirası qorumaq, araşdırmaq və müasir hərbi sistemlə uzlaşdırmaq gələcək nəsillər üçün tarixi, elmi, eyni zamanda, strateji əhəmiyyət daşıyır.

**ƏDƏBİYYAT**
1. Orxon-Yenisey Abidələri. Göytürk yazılı mənbələri, VIII əsr
2. Dədə Qorqud Kitabı. Azərbaycan Milli Elmlər Akademiyası nəşri, Bakı,1999
3. Bahaeddin Ögel. Türk Mədəniyyət Tarixi, Ankara, 1985
4. İsa Həbibbəyli. Türk düşüncəsində hərb və ədalət, Bakı, 2012
5. Ziya Bünyadov. Azərbaycan Atabəyləri Dövləti, Bakı, 1993
6. Vəli Əliyev. Azərbaycan hərbi terminologiyasının inkişaf yolları, BDU, 2007
7. Tuncer Gülensoy. Türk Dilinin Etimoloji Lüğəti, Ankara, 2005
8. Ənvər Çingizoğlu. Səfəvilər və Qızılbaşlar, Bakı, 2014